# Avropa İttifaqı sülh prosesinə bundan sonra da töhfəsini verəcək



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 6-da Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarı qəbul edib.**

2

# Avropa İttifaqı sülh prosesinə bundan sonra da öz töhfəsini verəcək



*Əvvəli 1-ci səh.*

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişellə Münhen Təhlükəsizlik Konfransı çərçivəsində keçirdiyi görüşü məmnunluqla xatırladı və ölkəmizin Brüssel sülh gündəliyinə sadiq olduğunu vurğuladı.

Toivo Klaar da öz növbəsində Münhendə Prezident İlham Əliyevlə Avropa İttifaqı Şurasının prezidentinin səmərəli görüşünü qeyd etdi və Avropa İttifaqının da Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması prosesinə bundan sonra da öz töhfəsini verəcəyini dedi.

Görüşdə Azərbaycanla Ermənistan arasında sülh müqaviləsi üzrə danışıqlar prosesi barədə fikir mübadiləsi aparıldı.

Azərbaycan.-2023.-7 mart.-S.1-2.